**AZƏRBAYCAN RESPUBLİKASININ**
**AUDİTORLAR PALATASI ŞURASININ**
**QƏRARI**

**Bakı şəhəri** **№369/2** **04 noyabr 2024-cü il**

**Auditorlar Palatasının 2024-cü il üzrə iş planının 7.1-ci “Beynəlxalq Mühasiblər Federasiyasına (IFAC) təqdim edilmiş fəaliyyət planının icrası ilə əlaqədar məlumatların hazırlanması və göndərilməsi” bəndinin icrası ilə əlaqədar 2024-cü ilin mart-avqust ayları üzrə görülmüş işlər barədə məlumat**

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin şəffaflığın artırılması və maliyyə nəzarətinin gücləndirilməsi sahəsində Beynəlxalq Audit Standartlarının tətbiqinin zəruriliyi və xüsusi əhəmiyyəti barədə proqram xarakterli tövsiyələrini rəhbər tutaraq, "Auditor xidməti haqqında" Azərbaycan Respublikası Qanunundan, “Azərbaycan Respublikasının Auditorlar Palatası haqqında” Əsasnamədən, Auditorlar Palatasının Beynəlxalq Mühasiblər Federasiyası (IFAC) qarşısında üzvlük öhdəliklərindən və "Azərbaycan Respublikasında auditor fəaliyyətinin inkişaf Konsepsiyası"ndan (2021-2030-cu illər) irəli gələn vəzifələrin icrasının təmin edilməsi məqsədilə Palatanın Beynəlxalq Audit Standartları və beynəlxalq təşkilatlarla iş şöbəsi tərəfindən hazırlanmış Auditorlar Palatasının 2024-cü il üzrə iş planının 7.1-ci “Beynəlxalq Mühasiblər Federasiyasına (IFAC) təqdim edilmiş fəaliyyət planının icrası ilə əlaqədar məlumatların hazırlanması və göndərilməsi” bəndinin icrası ilə əlaqədar 2024-cü ilin mart-avqust ayları üzrə görülmüş işlər barədə məlumatı müzakirə edərək Auditorlar Palatasının Şurası

**QƏRARA ALIR:**

1. Auditorlar Palatasının 2024-cü il üzrə iş planının 7.1-ci “Beynəlxalq Mühasiblər Federasiyasına (IFAC) təqdim edilmiş fəaliyyət planının icrası ilə əlaqədar məlumatların hazırlanması və göndərilməsi” bəndinin icrası ilə əlaqədar hazırlanmış məlumat nəzərə alınsın (əlavə olunur).
2. Beynəlxalq Audit Standartları və beynəlxalq təşkilatlarla iş şöbəsinə (N.Talıbov) və sədrin müşaviri F.Qarayevə tapşırılsın ki, 2024-cü ilin 1 dekabr tarixinədək Auditorlar Palatasının IFAC qarşısında üzvlük öhdəliklərinin yerinə yetirilməsinə dair Fəaliyyət Planı”nın hazırlanması təmin etsinlər.
3. Sədrin müşaviri F.Qarayevə tapşırılsın ki, 2024-cü il üzrə hazırlanmış “Fəaliyyət Planı”nın 5 dekabr tarixinədək IFAC-a təqdim edilməsi təmin etsin.
4. Auditorlar Palatasının xarici ölkələrin audit və mühasibat qurumları ilə əlaqələrinin genişləndirilməsində, beynəlxalq peşəkar qurumlarla müvafiq işlərin aparılması, standartların, digər sənəd və məlumatların öyrənilməsi, xidməti, elmi-tədqiqat və araşdırmalar məqsədilə tədbirlərin həyata keçirilməsində peşəkar fəaliyyətlərinə görə Beynəlxalq Audit Standartları və beynəlxalq təşkilatlarla iş şöbəsinə (N.Talıbov, N.Əlisoy) və Palatanın Şurası yanında Beynəlxalq əlaqələr və xarici qurumlarla iş üzrə komitənin sədri F.Qarayevə təşəkkür elan edilsin.
5. Bu qərarın mətni Auditorlar Palatasının internet səhifəsində yerləşdirilsin.

**Palatanın sədri** **Vahid Novruzov**